# İBRANİLƏRƏ MƏKTUB

## GİRİŞ

*«İbranilərə Məktub»* qarşıdurmalarla üzləşən və imanından dönmək təhlükəsində olan məsihçi imanlılara ünvanlanıb. Məktubun müəllifi onları imanda ruhlandırır və hər şeydən öncə göstərir ki, İsa Məsih Allahın izzətinin təzahürü və onun mahiyyətinin tam surətidir. Bunu etməklə o, üç əsas həqiqəti vurğulayır: İsa Məsih Allahın əbədi Oğludur. O çəkdiyi əzablarla Ataya itaətli olmağı öyrəndi. İsa Məsih Allahın Oğlu olaraq Əhdi-Ətiqin peyğəmbərlərindən, xüsusilə də, Musadan da üstündür. İsa Məsih kahinlərdən üstün olaraq Allah tərəfindən əbədi Kahin elan olunmuşdur. İmanlılar İsa Məsihə iman etmək vasitəsilə günahdan, qorxudan və ölümdən qurtulur. İsa Baş Kahin kimi həqiqi xilası təmin edir.

Məktubun müəllifi İsrail tarixində məşhur adamları nümunə gətirərək oxucuları sadiq qalmağa çağırır. O, oxuculara iztirab və təqiblər zamanı İsaya baxıb dözümlü olmağı tövsiyə edir. Məktub məsləhət və xəbərdarlıqla bitir.

**Kitabın məzmunu:**

1:1-14 Allahın Oğlunun mələklərdən üstünlüyü
2:1-18 İmanlılara öyüd-nəsihət
3:1–4:13 İsanın Musadan üstünlüyü
4:14–7:28 İsa Məsih baş kahinimizdir
8:1-13 Məsihin Əhdinin üstünlüyü
9:1-22 Yeni Əhdin qurbanı köhnəsindən üstündür
9:23–10:39 Son qurban
11:1-40 İman qəhrəmanları
12:1-29 Allahın ata ürəyi barəsində
13:1-25 Öyüd-nəsihətlər

---

### Allahın Oğlu mələklərdən üstündür

1 [1] Allah qədim zamanlarda dəfələrlə və müxtəlif yollarla
əcdadlarımıza peyğəmbərlər vasitəsilə müraciət etmişdi. [2] Amma
bu axır zamanda O bizə Oğul vasitəsilə müraciət etdi; Onu hər şeyin
varisi təyin etmişdi və Onun vasitəsilə kainatı yaratmışdı. [3] Oğul Allahın



The Bible in Azerbaijani; 1st ed. © 2008, Bible Society of Azerbaijan and Institute for Bible Translation

izzətinin əksi və mahiyyətinin tam surətidir. O hər şeyi qüdrətli kəlamı
ilə saxlayır. O, günahlardan təmizlənməni təmin edəndən sonra ucalarda
möhtəşəm Allahın sağında oturdu. 4 Mələklərdən nə qədər üstün adı irs
olaraq aldısa, o qədər onlardan üstün oldu.
5 [a]Axı Allah mələklərin hansına nə vaxtsa
«Sən Mənim Oğlumsan,
Mən bu gün Sənə Ata oldum»
yaxud
«Mən Ona Ata, O isə Mənə Oğul olacaq»
demişdir? 6 [b]Yenə də Allah İlk Doğulanı dünyaya gətirəndə deyir:
«Allahın bütün mələkləri qoy Onun qarşısında səcdə etsin».
7 [c]Mələklər barəsində isə deyir:
«Öz mələklərini küləklərə,
Öz xidmətçilərini yanar oda döndərir!»
8 [d]Amma Oğul haqqında bunu deyir:
«Ey Allah, taxtın əbədilik, sonsuzadək qalır,
Sənin şahlıq əsan insaf əsasıdır.
9 Salehliyi sevib qanunsuzluğa nifrət etmisən.
Ona görə Allah, Sənin Allahın
Sevinc yağı ilə
Yoldaşlarından çox Səni məsh edib».
10 [e]Yenə deyir:
«Ya Rəbb, Sən yerin təməlini əzəldən qurmusan,
Göylər Sənin əllərinin işidir!
11 Onlar yox olacaq, amma Sən qalacaqsan,
Hamısı paltar kimi köhnələcək,
12 Onları geyim kimi bükəcəksən,
Onları paltar kimi dəyişdirəcəksən.
Amma Sən dəyişməzsən,
İllərin tükənməzdir».
13 [f]Lakin Allah mələklərin hansına nə vaxtsa
«Mən düşmənlərini ayaqlarının altına kətil kimi salanadək
Sağımda otur»
demişdir? 14 Bütün mələklər xilası irs olaraq alacaq şəxslərə xidmət etmək
üçün göndərilən xidmətçi ruhlar deyilmi?

### Diqqətli olaq

2 1 Buna görə də biz eşitdiklərimizə daha da diqqətli olmalıyıq ki,
axın bizi aparmasın. 2 Çünki mələklər vasitəsilə bəyan edilən

---

[a] **1:5** 2Şam. 7:14; 1Saln. 17:13; Zəb. 2:7 [b] **1:6** Zəb. 97:7 [c] **1:7** Zəb. 104:4
[d] **1:8-9** Zəb. 45:6-7 [e] **1:10-12** Zəb. 102:25-27 [f] **1:13** Zəb. 110:1

The Bible in Azerbaijani; 1st ed. © 2008, Bible Society of Azerbaijan and Institute for Bible Translation

söz qüvvəyə mindi, hər cür təqsir və itaətsizliyə haqlı cəza verildisə,
3 bu cür böyük xilasa məhəl qoymasaq, biz necə qurtula bilərik? Bu
xilas əvvəlcə Rəbb tərəfindən bildirildi və Onu eşidənlər tərəfindən
bizə təsdiq olundu. 4 Allah da əlamət, xariqələr, müxtəlif möcüzələr
və Öz iradəsinə uyğun olaraq payladığı Müqəddəs Ruhun ənamları
ilə şəhadət etdi.
5 Barəsində danışdığımız gələcək dünyanı Allah mələklərə tabe
etmədi. 6 [g]Lakin kimsə bir yerdə belə şəhadət etdi:
«İnsan kimdir ki, onun haqqında düşünürsən?
Bəşər oğlu kimdir ki, onun qayğısını çəkirsən?
7 Onu mələklərdən az müddət ərzində aşağı tutdun,
İzzət və əzəmət tacını onun başına qoydun.[h]
8 Hər şeyi onun ayağının altına qoyub tabe etdin».
Allah hər şeyi insana tabe etdiyinə görə ona tabe olmamış heç
nə qoymadı. Lakin indi biz hər şeyin ona tabe olduğunu hələ
görmürük. 9 Amma Allahın lütfü ilə hər kəsin uğrunda ölmək üçün
mələklərdən az müddət ərzində aşağı tutulmuş Şəxsi, yəni İsanı
görürük. Çəkdiyi ölüm əzabına görə Onun başına izzət və əzəmət
tacı qoyuldu.
10 Hər şey Allah üçün və Allah vasitəsilə mövcuddur. Bir çox
övladı izzətə çatdırmaq üçün onların xilasının Banisini əzablar
vasitəsilə kamil etməsi Allaha münasib idi. 11 Çünki təqdis edən
Şəxsin və təqdis olunanların hamısının Atası eynidir. Bu səbəbdən
İsa onları qardaş çağırmaqdan utanmayıb deyir:
12 [i]«İsmini qardaşlarıma elan edəcəyəm,
Toplantı arasında Sənə həmd söyləyəcəyəm».
13 [j]Yenə də deyir:
«Mən Ona güvənəcəyəm»
və yenə
«Budur, Mən və Allahın Mənə verdiyi övladlar».
14 Bu səbəbdən bu övladlar tərkibcə qan və ətdən yarandıqlarına
görə İsa Özü də onların insan təbiətinə şərik oldu ki, ölüm üzərində
hakimiyyət sahibi olanı, yəni iblisi Öz ölümü vasitəsilə təsirsiz hala
gətirsin 15 və ölüm qorxusuna görə ömürləri boyu əsarətdə olanların
hamısını azad etsin. 16 Şübhəsiz, O, mələklərə deyil, İbrahim nəslinə
yardım edər. 17 Buna görə də O hər cəhətdən qardaşlarına bənzər
olmalı idi; belə ki Allaha xidmətində mərhəmətli və sadiq Baş Kahin
olub xalqının günahları üçün kəffarə edə bilsin. 18 Çünki Özü sınağa
çəkilib əzab çəkdiyi üçün sınağa çəkilənlərə kömək edə bilər.

---

[g] **2:6-8** Zəb. 8:4-6 [h] **2:7** *Qoydun* – bəzi əlyazmalarda *qoydun, Əllərinin işləri üzərində onu hökmdar etdin.* [i] **2:12** Zəb. 22:22 [j] **2:13** Yeş. 8:17-18

The Bible in Azerbaijani; 1st ed. © 2008, Bible Society of Azerbaijan and Institute for Bible Translation

### İsa Musadan üstündür

3 [1]Bu səbəbə görə, ey səmavi çağırışa ortaq olan müqəddəs qardaşlar,
əqidəmizin Elçisi və Baş Kahini İsa haqqında düşünün. [2][k]İsa Onu təyin edən
Kəsə sadiq qaldı; necə ki Musa da Allahın bütün evində Ona sadiq qaldı. [3]Evin
bənnası evdən daha çox hörmət qazandığı kimi İsa da Musadan daha böyük izzətə
layiq görüldü. [4]Çünki hər evin bir bənnası var, hər şeyin bənnası isə Allahdır.
[5]Musa gələcəkdə deyiləcək sözlərə şəhadət etmək üçün Allahın bütün evində bir
xidmətçi kimi sadiq qaldı. [6]Amma Məsih Onun evi üzərində Oğul olaraq sadiqdir.
Əgər biz cəsarətimizi və fəxr etdiyimiz ümidi qoruyub[l] saxlasaq, Onun evi bizik.

### İmansızlığa qarşı xəbərdarlıq

[7][m]Buna görə Müqəddəs Ruhun dediyi kimi:
«Bu gün əgər Onun səsini eşitsəniz,
[8] Qoy ürəkləriniz üsyan vaxtı olduğu kimi,
Səhradakı sınaq günündə olduğu kimi inadkar olmasın.
[9] Orada atalarınız Məni sınadılar,
Qırx il əməllərimi görərək Məni yoxladılar.
[10] Buna görə o nəsildən zəhləm getdi.
Dedim: "Onlar həmişə ürəklərində azır,
Yollarımı tanımırlar".
[11] Buna görə qəzəblənib and içmişəm:
"Onlar Mənim rahatlıq diyarıma girməyəcəklər"».
[12]Ey qardaşlar, diqqətli olun ki, sizlərdən heç birinizdə var olan
Allahdan uzaqlaşan şər və imansız ürək olmasın. [13]Amma «bu gün»
adlanan hər gün bir-birinizi ürəkləndirin ki, heç biriniz günahın
aldadıcılığı ilə inadkar olmasın. [14]Çünki əvvəldən bizdə olan etimadı
sonadək möhkəm saxlasaq, Məsihlə ortaq olarıq. [15][n]Necə ki deyilmişdir:
«Bu gün əgər Onun səsini eşitsəniz,
Qoy ürəkləriniz üsyan vaxtı olduğu kimi inadkar olmasın».
[16][j]Bəs eşidib üsyan edənlər kimdir? Musanın başçılığı ilə Misirdən
çıxanların hamısı deyilmi? [17]Allah qırx il kimə qəzəblənirdi? Günaha
batmış, meyitləri çöldə sərilənlərə deyilmi? [18]Bəs O kimlərə and içdi ki,
Onun rahatlıq diyarına girməyəcəklər? Məgər itaət etməyənlərə deyil?
[19]Beləliklə, görürük ki, onlar imansızlıqlarına görə oraya girə bilmədilər.

### Allahın rahatlıq diyarı

4 [1]Beləliklə, Allahın rahatlıq diyarına girmək vədi hələ də qüvvədə
olarkən hər birinizin bundan məhrum olmasından qorxaq. [2]Çünki

---

[k] **3:2,5** Say. 12:7 [l] **3:6** *Qoruyub* – bəzi əlyazmalarda *sona qədər möhkəm qoruyub.*
[m] **3:7-11** Zəb. 95:7-11 [n] **3:15** Zəb. 95:7-8 [j] **3:16-18** Say. 14:1-35

The Bible in Azerbaijani; 1st ed. © 2008, Bible Society of Azerbaijan and Institute for Bible Translation

Misirdən çıxanlar kimi biz də Müjdə aldıq. Amma onların eşitdiyi kəlam
onlara xeyir gətirmədi, çünki bu kəlama qulaq asanların imanına şərik
olmadılar.[p] 3 [q]Biz iman etmişlərsə rahatlıq diyarına girməkdəyik, necə ki
Allah demişdir:

«Buna görə qəzəblənib and içmişəm:
“Onlar Mənim rahatlıq diyarıma girməyəcəklər”».

Halbuki Onun işləri dünya yaranandan bəri tamamlanmışdır. 4 [r]Çünki bir
yerdə yeddinci gün barəsində belə deyib: «Allah bütün gördüyü işlərdən
ayrılıb yeddinci gün istirahət etdi». 5 [s]Bu barədə yenə deyib: «Onlar
Mənim rahatlıq diyarıma girməyəcəklər».

6 Beləliklə, bəzilərinə o rahatlıq diyarına girmək üçün, şübhəsiz ki,
imkan qalır. Lakin Müjdəni əvvəlcədən eşidənlər itaətsizliyə görə ora
girə bilmədilər. 7 [t]Bu səbəbə görə Allah xeyli vaxt keçəndən sonra Davud
vasitəsilə «bu gün» deyərək təkrar müəyyən bir gün təyin edir, necə ki
əvvəlcə deyilmişdir:

«Bu gün əgər Onun səsini eşitsəniz,
Qoy ürəkləriniz inadkar olmasın».

8 [u]Çünki Yeşua onlara rahatlıq diyarı versəydi, Allah bundan sonra başqa
bir gün barəsində danışmazdı. 9 Beləcə Allahın xalqı üçün hələ də bir
istirahət qalır. 10 [v]Allah Öz işlərini qurtarıb Şənbə günü istirahət etdiyi
kimi Onun rahatlıq diyarına girən də öz işlərini qurtarıb istirahət etdi.
11 Buna görə də bu rahatlıq diyarına girməyə çalışaq ki, heç kəs eyni
itaətsizlik nümunəsinə əməl edib yıxılmasın.

12 Allahın kəlamı canlı və təsirlidir, hər ikiağızlı qılıncdan da itidir,
canla ruhu, oynaqlarla iliyi bir-birindən ayıraraq keçir, ürəyin fikir və
niyyətlərini ayırd edir. 13 Allahdan gizli heç nə yoxdur. Lakin Onun
gözləri qarşısında hər şey çılpaq və açıq-aşkardır. Biz Ona hesabat
verəcəyik.

## İsa Məsih bizim Baş Kahinimizdir

14 Beləliklə, Allahın Oğlu İsa göylərdən keçən böyük Baş Kahinimiz
olduğuna görə əqidəmizi möhkəm tutaq. 15 Çünki bizim Baş Kahinimiz
belə deyil ki, zəifliklərimizdə bizim halımıza acıya bilməsin. Əksinə, hər
cəhətdən bizim kimi sınağa çəkilmiş, lakin günah etməmişdir. 16 Buna
görə də lütfkar Allahın taxtına cəsarətlə yaxınlaşaq ki, vaxtında köməyə
nail olmaq üçün mərhəmət alıb lütf tapaq.

5 1 İnsanlar arasından seçilən hər baş kahin günahlardan ötrü təqdim
və qurbanlar vermək, Allahla bağlı olan işlərdə insanları təmsil

---

[p] **4:2** *Bu kəlama qulaq asanların imanına şərik olmadılar* – bəzi əlyazmalarda *eşidəndə bu kəlamı imanla qovuşdurmadılar.* [q] **4:3** Zəb. 95:11 [r] **4:4** Yar. 2:2 [s] **4:5** Zəb. 95:11 [t] **4:7** Zəb. 95:7-8 [u] **4:8** Qanun. 31:7; Yeşua 22:4 [v] **4:10** Yar. 2:2

The Bible in Azerbaijani; 1st ed. © 2008, Bible Society of Azerbaijan and Institute for Bible Translation

etmək üçün təyin edilir. 2 Cahillərlə və yolunu azmışlarla həlim davrana
bilir, çünki özü də zəifliyə məruzdur. 3 [w]Buna görə o, xalqın günahları
üçün olduğu kimi öz günahları üçün də qurbanlar təqdim etməlidir.
4 [x]Heç kəs bu şərəfə öz-özünə nail olmur, ancaq Harun kimi Allah
tərəfindən çağırılanda nail olur.
5 [y]Eləcə də Məsih də Baş Kahin olmaq üçün Öz-Özünü izzətləndirmədi,
Ona

> «Sən Mənim Oğlumsan,
> Mən bu gün Sənə Ata oldum»

deyən Allah Onu izzətləndirdi. 6 [z]Digər yerdə isə O belə deyir:

> «Sən Melkisedeq vəzifəli əbədi bir Kahinsən».

7 [a]Məsih yer üzündə cisimdə olduğu günlərdə Onu ölümdən qurtarmağa
qadir olan Allaha böyük fəryad və göz yaşları ilə dua edib yalvardı və
möminliyinə görə eşidildi. 8 O, Oğul olduğu halda çəkdiyi əzablarla itaətli
olmağı öyrəndi. 9 Kamilliyə çatandan sonra Ona itaət edənlərin hamısı
üçün əbədi xilas qaynağı oldu 10 və Allah tərəfindən Melkisedeq vəzifəli
Baş Kahin təyin edildi.

### Kamilliyə doğru irəliləyək

11 Bu mövzuda deyiləsi sözümüz çoxdur, amma bunları izah etmək
çətindir. Çünki sizin qulağınız ağır eşidir. 12 [b]Siz artıq müəllim olmalı
idiniz; amma kimsənin sizə təkrarən Allahın kəlamının ibtidai təlimlərini
öyrətməsinə hələ də möhtacsınız. Siz bərk yeməyə yox, südə möhtac
olmusunuz. 13 Südlə bəslənən hər kəs körpə olduğu üçün salehlik
barəsində olan kəlamda təcrübəsizdir. 14 Bərk yemək isə yetkinlər, yəni
duyğularını xeyirlə şəri ayırd etməkdən ötrü həssas edənlər üçündür.

6 1 Bunun üçün Məsih barəsindəki ibtidai təlimi geridə buraxıb
kamilliyə doğru irəliləyək. Ölüm gətirən əməllərdən tövbə edib
Allaha iman etmənin təməlini, 2 vəftizlər, əl qoyub təqdis etmə, ölülərin
dirilməsi və əbədi məhkəmə haqqındakı təlimin əsasını yenidən
qurmayaq. 3 Allah izin verərsə, bunlara da əməl edəcəyik.
4 Bir dəfə nurlanmış, səmavi ənamdan dadmış və Müqəddəs Ruha şərik
olmuş, 5 Allahın xoş kəlamını və gələcək dövrün qüvvələrini dadmış
olduqları halda 6 imandan dönənləri yenidən tövbə edəcək vəziyyətinə
gətirmək mümkün deyil. Çünki özləri Allahın Oğlunu yenidən çarmıxa
çəkib rüsvay edirlər. 7 Dəfələrlə üstünə yağan yağışı içən və kimlər üçün
işlənirsə, onlara faydalı bitkilər yetişdirən torpaq Allahdan xeyir-bərəkət
alır. 8 Tikan və qanqal yetişdirən torpaq isə yararsız və lənətə yaxındır,
onun sonu yanmaqdır.

---

[w] **5:3** Lev. 9:7 [x] **5:4** Çıx. 28:1 [y] **5:5** Zəb. 2:7 [z] **5:6** Zəb. 110:4 [a] **5:7** Mat. 26:36-46;
Mark 14:32-42; Luka 22:39-46 [b] **5:12-13** 1Kor. 3:2

The Bible in Azerbaijani; 1st ed. © 2008, Bible Society of Azerbaijan and Institute for Bible Translation

[9]Lakin, ey sevimlilər, biz bu cür danışsaq belə, əminik ki, vəziyyətiniz
daha yaxşıdır və xilasa malik olursunuz. [10]Axı Allah ədalətsiz deyil
ki, əməlinizi və Onun adı ilə müqəddəslərə əvvəldən və indi də xidmət
etməklə göstərdiyiniz məhəbbəti unutsun. [11]Ümidin verdiyi tam etimada
nail olmaq üçün axıra qədər hər birinizin eyni səyi göstərməyinizi
arzulayırıq ki, [12]siz tənbəl olmayasınız, amma vəd olunan şeyləri iman
və səbirlə irs alanlardan nümunə götürəsiniz.

### Allahın vədi

[13] [c]Allah İbrahimə vəd verdiyi vaxt adına and içmək üçün Özündən
üstün birinin olmadığına görə Öz varlığına and içərək dedi:
[14]«Sənə mütləq xeyir-dua verəcəyəm və nəslini çoxaldacağam».
[15]Beləliklə, İbrahim səbirlə gözləyərək vədə nail oldu. [16]İnsanlar
özlərindən daha üstün olanın adına and içirlər və sözlərini təsdiq
edən and hər iddiaya son qoyur. [17]Eləcə də Allah vədin varislərinə
iradəsinin dəyişməzliyini daha açıq-aşkar etmək istəyərək Öz vədini
andla təsdiqlədi. [18]Belə ki qarşımıza qoyulan ümidə bağlanmaq üçün
Allaha sığınan bizlər Allahın bunlarda yalan danışması qeyri-mümkün
olduğuna görə iki dəyişilməz şeydə – Onun vəd və andında böyük
təsəlliyə malik olaq. [19] [d]Can lövbərimiz kimi möhkəm və sarsılmaz olan
bu ümid məbədin pərdəsinin arxasındakı iç otağa daxil olur. [20] [e]İsa ilk
olaraq bizim uğrumuzda oraya daxil oldu; O, Melkisedeq vəzifəli əbədi
Baş Kahin olmuşdu.

### Kahin Melkisedeq

7 [1] [f]Bu Melkisedeq Salem padşahı və Allah-Taalanın kahini idi.
Padşahları məğlub edib geri qayıdan İbrahimin pişvazına çıxdı və
ona xeyir-dua verdi. [2]İbrahim də ona hər şeyin onda bir hissəsini verdi.
Melkisedeq ən əvvəl öz adının mənasına görə salehlik padşahıdır, sonra
isə Salem padşahı, yəni sülh padşahıdır. [3]O, atasız, anasız olub nəsil
şəcərəsi yoxdur. Nə günlərinin başlanğıcı, nə də həyatının sonu var.
Lakin Allahın Oğluna bənzədilmiş əbədi kahin olaraq qalır.
[4]Baxın bu adam necə böyükdür ki, ulu babamız İbrahim belə,
qənimətlərinin onda bir hissəsini ona verdi. [5] [g]Levi oğullarından kahinlik
vəzifəsini alanlar, Qanuna görə xalqdan, yəni İbrahim nəslindən
olduqları halda, öz qardaşlarından onda bir hissəni almaq əmrinə
malikdirlər. [6]Amma onların nəslindən olmayan Melkisedeq İbrahimdən
onda bir hissəni aldı və vədlərə malik olana xeyir-dua verdi. [7]Şübhəsiz
ki, böyük özündən kiçiyə xeyir-dua verər. [8]Burada onda bir hissəni

---

[c] **6:13-14** Yar. 22:16-17 [d] **6:19** Lev. 16:1-2 [e] **6:20** Zəb. 110:4 [f] **7:1-2** Yar. 14:17-20
[g] **7:5** Say. 18:21

The Bible in Azerbaijani; 1st ed. © 2008, Bible Society of Azerbaijan and Institute for Bible Translation

ölümlü insanlar alır, orada isə yaşadığına dair şəhadətə malik olan
bir nəfər alır. 9 Demək olar ki, onda bir hissəni alan Levi də İbrahim
vasitəsilə onda bir hissəni vermişdi. 10 Çünki Melkisedeq İbrahimin
pişvazına çıxanda Levi hələ əcdadının belində idi.

### Yeni kahinlik nizamı

11 Beləliklə, əgər kamillik Levililərin kahinliyi vasitəsilə əldə edilsəydi
– çünki xalq bu kahinliyə əsasən Qanunu alıb – Harun vəzifəli deyil,
Melkisedeq vəzifəli başqa bir kahinin təyin edilməsi barədə danışmağa
daha nə ehtiyac vardı? 12 Çünki kahinlik dəyişiləndə Qanunun da
dəyişilməsinə ehtiyac var. 13 Haqqında bu sözlər deyilən Adam başqa
bir qəbiləyə mənsubdur və bu qəbilədən heç kəs qurbangahda xidmət
etməmişdir. 14 Axı Rəbbimizin Yəhuda qəbiləsindən törəməsi məlumdur.
Musa bu qəbilə barəsində kahinlərə aid bir söz deməmişdi. 15 Melkisedeqə
bənzər başqa bir Kahinin təyin edilməsi bunu daha da aydın göstərir.
16 O, Qanunun cismani kahinlik əmrinə görə deyil, tükənməz həyat
qüdrətinə görə Kahin oldu. 17 [h] Çünki

«Sən Melkisedeq vəzifəli əbədi bir Kahinsən»

deyə şəhadət olunur. 18 Bundan əvvəlki əmr zəif və yararsız olduğuna
görə ləğv olunur. 19 Çünki Qanun heç bir şeyi kamilləşdirməyib. Bunun
yerinə bizi Allaha yaxınlaşdıran daha gözəl ümid verilir.

20 Bu kahinlik isə andsız olmadı. O biri kahinlər andsız kahin oldu.
21 [i] Lakin İsa Ona

«Rəbb and içdi, qərarını dəyişməz:
"Sən əbədi[j] bir Kahinsən"»

deyən Allah vasitəsilə andla kahin oldu. 22 Buna görə İsa daha yaxşı
Əhdin zəmanətçisi oldu.

23 Bununla belə, həmin kahinlərin sayı çox idi, çünki ölüm onların
vəzifədə qalmasına mane olurdu. 24 Lakin İsa əbədi yaşadığı üçün daimi
kahinliyə malikdir. 25 Buna görə O Özü vasitəsilə Allaha yaxınlaşanları
tam xilas etməyə qadirdir. Çünki O onlar üçün vəsatətçilik etməkdən
ötrü həmişə yaşayır.

### Yeni Əhdin Baş Kahini

26 Həqiqətən, bizə belə bir Baş Kahinin olması münasibdir ki, O,
müqəddəs, günahsız, ləkəsiz, günahkarlardan ayrılmış, göylərdən daha
ucalara qaldırılmış olsun. 27 [k] O başqa baş kahinlər kimi əvvəlcə öz
günahları, sonra da xalqın günahları üçün hər gün qurban təqdim etmək
məcburiyyətində deyil. Çünki Özünü qurban verməklə bunu birdəfəlik

---

[h] **7:17** Zəb. 110:4 [i] **7:21** Zəb. 110:4 [j] **7:21** *Əbədi* – bəzi əlyazmalarda *Melkisedeq vəzifəli əbədi.* [k] **7:27** Lev. 9:7

The Bible in Azerbaijani; 1st ed. © 2008, Bible Society of Azerbaijan and Institute for Bible Translation

etdi. 28 Qanun zəiflikləri olan insanları baş kahin təyin edir. Lakin
Qanundan sonra verilmiş and sözü əbədi olaraq kamilləşdirilmiş Oğulu
təyin etdi.

8 1 [l]Deyilənlərin əsası isə budur: bizim elə bir Baş Kahinimiz var
ki, göylərdəki möhtəşəm Allahın taxtının sağında oturub. 2 O,
Müqəddəs məkanda və insanın deyil, Rəbbin qurduğu həqiqi çadırda
xidmət edir. 3 Hər baş kahin təqdim və qurban gətirmək üçün təyin
olunur. Buna görə bizim də Baş Kahinimizin təqdim etmək üçün nəyisə
olmalıdır. 4 Əgər Özü yer üzündə olsaydı, əsla Kahin olmazdı. Çünki
Qanuna əsasən təqdim gətirənlər var. 5 [m]Onlar göylərdəkilərin təsviri və
kölgəsi olan yerdə ibadət edir, necə ki Musa İbadət çadırını qurmaq üzrə
olanda Allah onu xəbərdar etmişdi:

«Dağda sənə göstərilən nümunəyə görə bunların hamısını ehtiyatla
düzəlt».

6 Amma indi İsa daha yaxşı vədlər üzərində qurulmuş daha yaxşı bir
Əhdin Vasitəçisi olduğu qədər üstün bir xidmətə nail oldu.

7 Əgər ilk Əhd qüsursuz olsaydı, ikinci Əhdə səbəb axtarılmazdı.
8 [n]Çünki Allah Öz xalqını təqsirkar çıxararaq deyir:

«Rəbb bəyan edir:
“İsrail xalqı və Yəhuda xalqı ilə
Yeni bir Əhd bağlayacağım günlər yaxınlaşır.
9 Bu Əhd
Atalarını Misir torpağından çıxartmaq üçün
Əllərindən tutduğum gün
Onlarla bağladığım əhdə bənzəməyəcək.
Çünki onlar əhdimə sadiq qalmadılar,
Mən də onlardan üz döndərdim”
Rəbb belə bəyan edir.
10 “O günlərdən sonra
İsrail xalqı ilə
Bağlayacağım Əhd belədir”
Rəbb bəyan edir,
“Qanunlarımı onların zehinlərinə qoyub
Ürəklərinə yazacağam.
Mən onların Allahı,
Onlar da Mənim xalqım olacaq.
11 Bir kəs öz həmvətənini yaxud qardaşını
‹Rəbbi tanı› deyib öyrətməyəcək.
Çünki böyükdən kiçiyə qədər hamı Məni tanıyacaq.
12 Çünki təqsirlərinə qarşı mərhəmətli olacağam,

---

[l] **8:1-2** Zəb. 110:1 [m] **8:5** Çıx. 25:40; Həv. 7:44 [n] **8:8-12** Yer. 31:31-34

The Bible in Azerbaijani; 1st ed. © 2008, Bible Society of Azerbaijan and Institute for Bible Translation

Günahlarını daha yada salmayacağam”».
13 Allah «Yeni Əhd» deməklə birincisinin köhnə olduğunu göstərir.
Köhnələn və yaşa dolansa çox keçmədən yox olur.

### Yeni Əhdin qurbanı köhnəsindən üstündür

9 1 Birinci Əhdin də ibadət barəsindəki qaydaları və dünyəvi
Müqəddəs məkanı var idi. 2 [j]Bir çadır qurulmuşdu. Müqəddəs yer
adlanan ilk bölmədə çıraqdan, masa və təqdis çörəkləri var idi. 3 [p]İkinci
pərdə arxasında isə Ən Müqəddəs yer adlanan bir bölmə var idi. 4 [q]Burada
qızıl buxur qurbangahı ilə hər tərəfdən qızılla örtülmüş Əhd sandığı var
idi. Sandığın içində manna ilə dolu qızıl qab, Harunun tumurcuqlamış
əsası və Əhd lövhələri var idi. 5 [r]Sandığın üzərində isə kəffarə qapağına
kölgə salan izzətli keruvlar var idi. Lakin bunlar barəsində indi ətraflı
danışa bilmirik.
6 [s]Bu şeylər belə qurulduqdan sonra kahinlər həmişə çadırın ilk
bölməsinə daxil olub ibadət aparırlar. 7 [t]İkinci bölməsinə isə yalnız
baş kahin daxil ola bilər. O da özü üçün və xalqın bilmədən işlətdiyi
günahlar üçün orada təqdim etdiyi qurban qanı olmadan o yerə daxil ola
bilməz. 8 Müqəddəs Ruh bununla göstərir ki, çadırın ilk bölməsi durduqca
Ən Müqəddəs yerə gedən yol hələ aşkar olmamışdır. 9 Bu çadır indiki
vaxt üçün bir misaldır. Bu səbəbdən ibadət edənin vicdanını kamilləşdirə
bilməyən təqdimlər və qurbanlar verilir. 10 Bunlar ancaq yemək, içmək və
cürbəcür yuyunma tərzləri ilə, yəni hər şeyin nizama salınacağı vaxtadək
qüvvədə olub cismani işlərə məxsus olan qaydalarla əlaqədardır.
11 Lakin Məsih indi gələn[u] nemətlərin Baş Kahini olaraq gəldi. İnsan
əli ilə qurulmayan, yəni bu yaradılışdan olmayan daha böyük və daha
mükəmməl çadırdan keçib 12 [v]təkələrlə danaların qanı ilə yox, Öz qanı
ilə Ən Müqəddəs yerə birdəfəlik daxil oldu; əbədi satınalınmanı təmin
etdi. 13 Çünki əgər təkələrlə buğaların qanı və düyənin külünün murdar
olanların üstünə səpilməsi onları təqdis edib cismən təmizləyirsə,
14 deməli, əbədi Ruh vasitəsilə Özünü qüsursuz olaraq Allaha təqdim
etmiş Məsihin qanı var olan Allaha ibadət edə bilməmiz üçün
vicdanımızı ölüm gətirən əməllərdən nə qədər çox təmizləyəcək!
15 Buna görə də çağırılmışların vəd edilən əbədi irsi alması üçün
Məsih Yeni Əhdin Vasitəçisidir. Çünki O, Birinci Əhd zamanı etdikləri
təqsirlərdən onları satın almaq üçün ölmüşdü. 16 Bir vəsiyyətnamə varsa,
vəsiyyət edənin ölümünü sübut etmək lazımdır. 17 Çünki vəsiyyətnamə

---

[j] **9:2** Çıx. 25:23-40; 26:1-30; 36:8-34; 37:10-24 [p] **9:3** Çıx. 26:31,33 [q] **9:4** Çıx. 16:33; 25:10-16; 30:1-6; 37:25-28; Say. 17:8-10; Qanun. 10:3-5 [r] **9:5** Çıx. 25:17-22; 37:6-9
[s] **9:6** Say. 18:2-6 [t] **9:7** Lev. 16:1-34 [u] **9:11** *İndi gələn* – bəzi əlyazmalarda *gələcək*.
[v] **9:12-13** Lev. 16:15-16; Say. 19:9,17-19

The Bible in Azerbaijani; 1st ed. © 2008, Bible Society of Azerbaijan and Institute for Bible Translation

yalnız ölümdən sonra qüvvəyə minir. Vəsiyyət edən sağ olanda
vəsiyyətnamənin heç bir qüvvəsi yoxdur. 18 Bu səbəbə görə Birinci Əhd də
qan axıdılmadan qüvvəyə minmədi. 19 [w]Musa Qanunun hər əmrini bütün
xalqın önündə bəyan edəndən sonra su, al rəngli yun və züfa otu ilə dana
və təkələrin[x] qanını götürüb həm kitabın özünə, həm də bütün xalqın
üzərinə səpərək dedi:
20 «Budur Allahın sizə əmr etdiyi Əhdin qanı».
21 [y]Eyni tərzdə çadır və bütün xidmət əşyalarının üzərinə qan səpdi.
22 [z]Demək olar ki, Qanuna görə hər bir şey qanla təmizlənir və qan
axıdılmadan bağışlanma olmur.

### Son qurban

23 Beləliklə, göylərdəkilərin təsvirlərini bu qurbanlarla, göylərdəkiləri
isə bunlardan daha yaxşı qurbanlarla təmizləmək lazım idi. 24 Məsih
əsl Müqəddəs məkanın nümunəsi olub insan əli ilə qurulan Müqəddəs
məkana deyil, göyün özünə daxil oldu ki, indi bizim üçün Allahın
hüzurunda zahir olsun. 25 Baş kahin hər il özünün olmayan qanla Ən
Müqəddəs yerə girər. Amma Məsih Özünü dəfələrlə təqdim etmək üçün
göyə girmədi. 26 Elə olsaydı, O, dünya yaranandan bəri dəfələrlə əzab
çəkməli olardı. İndi isə dövrlərin sonunda, O Özünü qurban verməklə
günahı aradan qaldırmaq üçün bir dəfə zühur etdi. 27 [a]Necə müəyyən
edilmişdir ki, insanlar bir dəfə ölüb ondan sonra mühakimə olunsunlar,
28 eləcə də Məsih bir çoxlarının günahını Öz üzərinə götürmək üçün bir
dəfə təqdim edilmişdir və ikinci dəfə günahın öhdəsindən gəlmək üçün
deyil, xilas gətirmək üçün Onu gözləyənlərə zühur edəcək.

10 1 Qanunda gələcək nemətlərin əsli deyil, kölgəsi var. Buna
görə də Qanun ildən-ilə daimi bir surətdə təqdim olunan eyni
qurbanlar vasitəsilə Allaha yaxınlaşanları əsla kamil edə bilməz. 2 Əks
təqdirdə, bu qurbanların təqdim olunmasına son qoyulardı. Çünki ibadət
edənlər birdəfəlik təmizlənəndən sonra artıq günahlarına görə vicdan
əzabı çəkməzdilər. 3 Amma bu qurbanlar vasitəsilə insanlar ildən-ilə
günahlarını yadlarına salır. 4 Çünki buğaların və təkələrin qanı ilə
günahları aradan qaldırmaq qeyri-mümkündür.
5 [b]Buna görə Məsih dünyaya gələndə deyir:
«Qurban və təqdim istəmədin,
Amma Mənə bir bədən hazırladın.
6 Yandırma qurbanı, günah qurbanından xoşun gəlmədi.
7 O zaman dedim: “Budur, gəlmişəm,
Kitab tumarında Mənim haqqımda yazılıb.

---

[w] **9:19-20** Çıx. 24:6-8 [x] **9:19** *Dana və təkələrin* – bəzi əlyazmalarda *danaların.*
[y] **9:21** Lev. 8:15 [z] **9:22** Lev. 17:11 [a] **9:27-28** Yeş. 53:12 [b] **10:5-7** Zəb. 40:6-8

The Bible in Azerbaijani; 1st ed. © 2008, Bible Society of Azerbaijan and Institute for Bible Translation

Ay Allah, Sənin iradəni yerinə yetirim"».
8 Məsih əvvəl dedi:
«Qurban, təqdim, yandırma qurbanı və günah qurbanı istəmədin,
Bunlardan xoşun gəlmədi».
Bunlar hamısı Qanuna görə təqdim olunur. 9 Sonra dedi: «Budur,
gəlmişəm, Sənin iradəni[c] yerinə yetirim». Yəni, Məsih ikinci Əhdi
qüvvəyə mindirmək üçün birincisini ləğv edir. 10 Bu iradəyə əsasən
biz İsa Məsihin bədəninin birdəfəlik təqdim olunmasına görə təqdis
olunduq.
11 Hər bir kahin hər gün xidmətini icra edərək əsla günahları aradan
qaldıra bilməyən eyni qurbanları dəfələrlə təqdim edir. 12 [d]Amma Məsih
günahlar üçün yalnız bir qurban təqdim edəndən sonra əbədi olaraq
Allahın sağında oturdu. 13 O vaxtdan bəri O, düşmənlərinin Onun
ayaqları altına kətil kimi salınmasını gözləyir. 14 Çünki O yalnız bir
təqdim vasitəsilə təqdis olunmaqda olanları həmişəlik kamilləşdirdi.
15 Müqəddəs Ruh da bu haqda bizə şəhadət edir. Çünki əvvəl deyir:
16 [e]«"O günlərdən sonra
Onlarla bağlayacağım Əhd belədir"
Rəbb bəyan edir,
"Qanunlarımı onların ürəyinə qoyub
Zehinlərinə yazacağam"».
17 Sonra deyir:
«Günahlarını və qanunsuzluqlarını yada salmayacağam».
18 Günahların bağışlanması olanda isə artıq günah üçün təqdim etmə
yoxdur.

### Nəsihət və xəbərdarlıq

19 Beləliklə, ey qardaşlar, İsanın qanı sayəsində Ən Müqəddəs yerə daxil
olmağa cəsarətimiz çatır. 20 O bizə pərdədən, yəni Öz cismindən keçən
yeni və canlı bir yol açmışdır. 21 Həm də O, Allahın evi üçün cavabdeh
olan böyük bir Kahinimizdir. 22 [f]Ona görə ürəklərimiz pis vicdandan
paklanmış, bədənlərimiz də təmiz su ilə yuyulmuş halda imanın tam
etimadı ilə, səmimi qəlblə Allaha yaxınlaşaq. 23 Ümid verən əqidədən
möhkəm tutaq, çünki vəd verən Allah sadiqdir. 24 Bir-birimizi məhəbbətə
və xeyirxah əməllər etmək üçün necə həvəsləndirmək haqqında
fikirləşək. 25 Bəzi adamların vərdiş etdiyi kimi birgə yığışmağımızı tərk
etməyək. Lakin qiyamət gününün[g] yaxınlaşdığını gördükcə bir-birimizi
daha çox ruhlandıraq.

---

[c] **10:9** *Sənin iradəni* – bəzi əlyazmalarda *Ay Allah, Sənin iradəni.* [d] **10:12-13** Zəb. 110:1
[e] **10:16-17** Yer. 31:33-34; İbr. 8:10-12 [f] **10:22** Lev. 8:30; Yez. 36:25 [g] **10:25** *Qiyamət günü* – hərfi tərcümədə *gün.*

The Bible in Azerbaijani; 1st ed. © 2008, Bible Society of Azerbaijan and Institute for Bible Translation

26 [h]Həqiqəti dərk edib qəbul edəndən sonra qəsdən günah etməkdə
davam etsək, artıq günah üçün qurban qalmır. 27 Lakin mühakimənin
və Allahın düşmənlərini yandırıb-yaxan şiddətli alovun dəhşətlə
gözlənməsi qalır. 28 [i]Musanın Qanununu heç sayan adam iki yaxud üç
şahidin sözü ilə rəhm edilmədən öldürülür. 29 [j]Əgər bir nəfər Allahın
Oğlunu tapdalayaraq təqdis edildiyi Əhdin qanını adi bir şey sayıb
Allahın lütfkar Ruhunu təhqir edərsə, sizcə bundan nə qədər ağır
cəzaya layiq sayılacaq? 30 [k]Çünki

«Qisas Mənimdir, əvəzini Mən verəcəyəm»

və yenə də

«Rəbb Öz xalqını mühakimə edəcək»

deyəni tanıyırıq. 31 Var olan Allahın əlinə düşmək dəhşətdir!

32 Siz əvvəlki günləri xatırlayın. O vaxt Allahın nuru üzərinizə
saçandan sonra əzablı, böyük mübarizəyə tab gətirdiniz. 33 Bəzən
təhqir və əziyyətlərə uğrayıb tamaşaya qoyuldunuz, bəzənsə eyni
rəftara məruz qalanların dərdinə şərik oldunuz. 34 Həm də siz
məhbusların çəkdiyi əzablara şərik oldunuz, özünüzün daha yaxşı və
daimi malınız olduğunu bilərək əmlakınızın talan edilməsini sevinclə
qəbul etdiniz. 35 Buna görə cəsarətinizi itirməyin, bu cəsarətə görə
mükafatınız böyükdür. 36 Çünki Allahın iradəsini yerinə yetirib vəd
olunan şeyi almaq üçün sizin tab gətirməyə ehtiyacınız var. 37 [l]Çünki

«Bir az müddətdən sonra
Gələn gələcək, gecikməyəcək.
38 Amma saleh adamım imanla yaşayacaq.
Əgər geri çəkilsə, ondan razı qalmayacağam».

39 Bizsə geri çəkilib həlak olanlardan deyilik; iman edib canlarının
xilasına nail olanlardanıq.

### İman qəhrəmanları

11 1 İman ümid edilənlərə etibar etmək, görünməyən şeylərə
əmin olmaqdır. 2 Əcdadlarımız imanları üçün müsbət şəhadət
aldılar.

3 [m]İman vasitəsilə dərk edirik ki, kainat Allahın kəlamı ilə yarandı,
beləcə də görünən şeylər görünməyənlərdən törədi.

4 [n]İman vasitəsilə Habil Allaha Qabildən daha yaxşı bir qurban
təqdim etdi. Bunun vasitəsilə saleh olduğu təsdiq edildi, çünki Allah
onun təqdimləri barədə şəhadət etdi. Habil ölmüş olduğu halda iman
vasitəsilə hələ də danışır.

---

[h] **10:26-27** Yeş. 26:11 [i] **10:28** Qanun. 17:6; 19:15 [j] **10:29** Çıx. 24:8
[k] **10:30** Qanun. 32:35-36; Rom. 12:19 [l] **10:37-38** Hab. 2:3-4; Rom. 1:17; Qal. 3:11
[m] **11:3** Yar. 1:1; Zəb. 33:6,9; Yəh. 1:3 [n] **11:4** Yar. 4:3-10

The Bible in Azerbaijani; 1st ed. © 2008, Bible Society of Azerbaijan and Institute for Bible Translation

5[j]Xanok ölümü görməsin deyə iman vasitəsilə dünyadan götürüldü.
Onu tapa bilmədilər, çünki Allah onu dünyadan götürmüşdü.
Götürülməzdən əvvəl o, şəhadət almışdı ki, Allahı razı salıb. 6İman
olmadan Allahı razı salmaq qeyri-mümkündür. Çünki Allaha yaxınlaşan
şəxs inanmalıdır ki, O var və Onu axtaranlara mükafat verir.
7[p]Nuh hələ gözə görünməyən şeylər barəsində edilən xəbərdarlığa
iman vasitəsilə ciddi yanaşaraq öz ev əhlinin xilası üçün gəmi düzəltdi.
O, iman vasitəsilə dünyanı məhkum etdi və imana görə olan salehliyi irs
olaraq aldı.
8[q]İbrahim çağırılanda iman vasitəsilə itaətli olub irs alacağı torpağa
getdi. O hara getdiyini bilməyərək yola çıxdı. 9[r]İman vasitəsilə vəd
edilmiş ölkədə bir qərib kimi məskunlaşdı. O eyni vədin həmvarisləri
olan İshaq və Yaqubla birlikdə çadırlarda yaşadı. 10Çünki İbrahim
memarı və banisi Allah olan bünövrəli şəhəri gözləyirdi. 11[s]Sara özü
sonsuz və yaşı ötmüş olduğu halda iman vasitəsilə nəsil yaratmaq üçün
güc aldı, çünki vəd Edəni sadiq saydı. 12[t]Buna görə də bir kişidən, artıq
ölüdən fərqlənməyən birindən sayca göydəki ulduzlar qədər, dəniz
kənarındakı qum kimi saysız-hesabsız nəsil törədi.
13[u]Bunların hamısı imanlı olaraq öldü. Vəd edilən şeylərə nail
olmadılar, amma bunları uzaqdan görüb salamladılar və özlərinin yer
üzündə yad və qərib olduqlarını iqrar etdilər. 14Axı belə sözləri deyənlər
bir vətən axtardıqlarını göstərirlər. 15Əgər onlar çıxdıqları ölkə barəsində
düşünsəydilər, qayıtmağa imkanları olardı. 16Amma əslində onlar daha
yaxşı bir ölkəni, yəni səmavi vətəni arzu edirdilər. Buna görə Allah
Özünü onların Allahı adlandırmaqdan utanmır, çünki O onlar üçün şəhər
hazırlamışdır.
17[v]İbrahim sınağa çəkildiyi vaxt iman vasitəsilə İshaqı qurban olaraq
təqdim etdi. Vədlərə nail olmuş İbrahim bircə oğlunu qurban vermək
niyyətində idi. 18[w]Halbuki ona «İshaqdan törəyənlər sənin nəslin
adlanacaq» deyilmişdi. 19O, Allahı onu ölülər arasından diriltməyə qadir
saydı. Buna görə də məcazi mənada İshaqı ölümdən geri aldı.
20[x]İman vasitəsilə İshaq gələcək hadisələrlə əlaqədar Yaquba və Esava
xeyir-dua verdi.
21[y]Yaqub ölərkən Yusifin hər iki oğluna iman vasitəsilə xeyir-dua verdi
və öz dəyənəyinin başına söykənib Allaha səcdə etdi.
22[z]Yusif də ölərkən İsrail övladlarının Misirdən çıxacaqları haqqında
iman vasitəsilə söz söyləyərək öz sümükləri barəsində əmr verdi.

---

[j] **11:5** Yar. 5:21-24 [p] **11:7** Yar. 6:13-22 [q] **11:8** Yar. 12:1-5 [r] **11:9** Yar. 35:27
[s] **11:11** Yar. 18:11-14; 21:2 [t] **11:12** Yar. 15:5; 22:17; 32:12 [u] **11:13** Yar. 23:4;
1Saln. 29:15; Zəb. 39:12 [v] **11:17** Yar. 22:1-14 [w] **11:18** Yar. 21:12; Rom. 9:7
[x] **11:20** Yar. 27:27-29,39-40 [y] **11:21** Yar. 47:31–48:1-20 [z] **11:22** Yar. 50:24-25; Çıx. 13:19

The Bible in Azerbaijani; 1st ed. © 2008, Bible Society of Azerbaijan and Institute for Bible Translation

23 [a]Musa doğulanda anası və atası iman vasitəsilə onu üç ay gizlətdilər.
Çünki onlar uşağın gözəl olduğunu görüb padşahın fərmanından qorxmadılar.
24 [b]Musa böyüyəndən sonra firon qızının oğlu adlanmaqdan iman
vasitəsilə imtina etdi. 25 Günahdan müvəqqəti zövq almaqdansa Allahın
xalqı ilə birlikdə əzab çəkməyi üstün tutdu. 26 Məsih naminə çəkdiyi
təhqiri Misir xəzinələrindən daha böyük var-dövlət saydı, çünki gözünü
alacağı mükafata dikmişdi. 27 [c]İman vasitəsilə padşahın qəzəbindən
qorxmayıb Misirdən çıxdı, çünki o, gözə Görünməyəni sanki görmüş kimi
möhkəm dayandı. 28 [d]İman vasitəsilə Musa Pasxa qurbanının kəsilməsini
və onun qanının çilənməsini həyata keçirtdi ki, ilk doğulanları öldürən
məhvedici mələk İsraillilərə toxunmasın.
29 [e]İman vasitəsilə İsraillilər Qırmızı dənizi qurudan keçən kimi
keçdilər. Misirlilər də bunu etməyə cəhd etdilər, amma boğuldular.
30 [f]İman vasitəsilə İsraillilər yeddi gün Yerixonun ətrafında gəzdikdən
sonra onun divarları yıxıldı. 31 İman vasitəsilə fahişə Raxav casusları
dostcasına qarşıladığı üçün itaətli olmayanlarla birgə həlak olmadı.
32 [g]Daha nə deyə bilərəm? Gideon, Baraq, Şimşon, İftah, Davud, Şamuel
və başqa peyğəmbərlər barəsində danışsam, vaxtım çatmaz. 33 [h]İman
vasitəsilə onlar padşahlıqları məğlub etdilər, ədaləti icra etdilər, vədlərə
nail oldular, aslanların ağızlarını bağladılar, 34 [i]şiddətli alovu söndürdülər,
qılıncın ağzından qaçdılar, zəiflikdən qüvvətləndilər, döyüşdə güclü oldular,
yadellilərin ordularını qovdular. 35 [j]Qadınlar öz ölülərini dirilmiş geri
aldılar. Bəziləri işgəncə çəkəndə qurtulmaqdan imtina etdilər ki, dirilib
daha yaxşı həyata nail olsunlar; 36 [k]digərləri də təhqir olunub döyüldülər,
habelə zəncirlərə və həbslərə məruz qaldılar; 37 [l]onlar daşqalaq edildilər,
mişarlanıb böləndülər,[m] qılıncdan keçirilib öldürüldülər. Bəziləri isə qoyun
dərisinə və keçi gönünə bürünərək gəzib-dolaşdılar, yoxsulluğa, əzab-əziyyətə
məruz qaldılar. 38 Dünya onlara layiq deyildi. Onlar səhralarda, dağlarda,
mağaralarda və yeraltı oyuqlarda dolaşıb gəzdilər.
39 Onların hamısı iman vasitəsilə müsbət şəhadət aldı, amma
vəd edilənə nail olmadı. 40 Çünki Allah bizim üçün daha yaxşı şey
hazırlamışdır ki, onlar bizsiz kamilliyə çatmasın.

### Allah tərbiyə verən Atadır

12 1 Buna görə bu qədər böyük şahidlər buludu ilə əhatə
olunduğumuz üçün biz hər bir yükü və bizi asanlıqla çaşdıran

---

[a] **11:23** Çıx. 1:22; 2:2 [b] **11:24** Çıx. 2:10-12 [c] **11:27** Çıx. 2:15 [d] **11:28** Çıx. 12:21-30 [e] **11:29** Çıx. 14:21-31 [f] **11:30-31** Yeşua 2:1-21; 6:12-25 [g] **11:32** Hak. 4:6–5:31; 6:11–8:32; 11:1–12:7; 13:2–16:31; 1Şam. 1:1–28:3; 16:11; 1Pad. 2:11 [h] **11:33** Dan. 6:1-27 [i] **11:34** Dan. 3:1-30 [j] **11:35** 1Pad. 17:17-24; 2Pad. 4:25-37 [k] **11:36** 1Pad. 22:26-27; 2Saln. 18:25-26; Yer. 20:2; 37:15; 38:6 [l] **11:37** 2Saln. 24:21 [m] **11:37** *Bölündülər* – bəzi əlyazmalarda *bölündülər, sınağa çəkildilər.*

The Bible in Azerbaijani; 1st ed. © 2008, Bible Society of Azerbaijan and Institute for Bible Translation

günahı tərk edib qarşımızdakı yarışda dözümlə qaçaq. 2 Gözümüzü
imanımızın Banisi və Kamilləşdiricisi olan İsaya dikək. O, qarşısına
qoyulan sevincə görə rüsvayçılığı heç sayıb çarmıxa çəkilməyə tab
gətirdi və Allahın taxtının sağında oturdu. 3 Günahkarlardan Ona qarşı
olan bu qədər düşmənçiliyə dözən Şəxs barəsində düşünün ki, yorulub
ruhdan düşməyəsiniz.
4 Günaha qarşı etdiyiniz mübarizədə hələ qan töküləcək qədər möhkəm
durmamısınız. 5 [n]Sizə oğul deyib verilən bu nəsihəti unutdunuz:
«Oğlum, Rəbbin verdiyi tərbiyəyə xor baxma,
Onun məzəmmətindən ruhdan düşmə.
6 Çünki Rəbb sevdiyini tərbiyələndirər,
Qəbul etdiyi hər oğulu döyər».
7 Tərbiyəyə tab gətirin. Allah sizinlə övladları kimi rəftar edir. Elə
bir oğul varmı atası onu tərbiyələndirməsin? 8 Hər kəs üçün ümumi
olan tərbiyədən məhrum olsanız, deməli, siz oğul yox, qeyri-qanuni
övladsınız. 9 Həm də əgər bizi tərbiyələndirən cismani atalarımıza
hörmət ediriksə, ruhani Ataya daha çox tabe olaraq yaşamalı
deyilikmi? 10 Atalarımız bizi qısa bir müddətə öz dərk etdikləri kimi
tərbiyələndirdilər. Amma Allah Onun müqəddəsliyinə ortaq olaq deyə
bizi xeyrimiz üçün tərbiyələndirir. 11 Hər tərbiyə isə indiki vaxt sevinc
deyil, kədər verən bir şey kimi görünür, amma sonradan bu yolda
yetişdirilənlərə salehliyin dinclik səmərəsini hasil edir.
12 [j]Buna görə yorğun əllərinizi qaldırın və zəiflənmiş dizlərinizi
gücləndirin. 13 Ayaqlarınız üçün düz yollar seçin ki, axsaq bədən
üzvləriniz yerindən çıxmasın, əksinə sağalsın.

### Allahın lütfünü rədd etməyin

14 Hamı ilə birlikdə sülh içində yaşamağa və müqəddəs olmağa can atın,
çünki müqəddəsliyə nail olmadan heç kim Rəbbi görməyəcək. 15 [p]Diqqət
edin ki, heç kim Allahın lütfündən məhrum olmasın, aranızda bir acı
kök böyüyüb əziyyət verməsin və bununla bir çoxlarını murdar etməsin.
16 [q]Qoy heç kim əxlaqsız və yaxud Esav kimi allahsız olmasın. O, bir qab
xörəyə görə öz ilk oğulluq haqqını satdı. 17 [r]Bilirsiniz ki, bundan sonra da
o, xeyir-duanı irs olaraq almaq istəyirdi, lakin rədd olundu. Xeyir-duanı
göz yaşları ilə axtardısa da, atasının fikrini dəyişməyə qadir olmadı.
18 [s]Siz toxunula bilən, odla yanan bir şeyə,[t] qaranlığa, zülmətə,
qasırğaya, 19 şeypur gurultusuna və kəlam söyləyən səsə yaxınlaşmadınız;

---

[n] **12:5-6** Əyy. 5:17; Sül. 3:11-12; Vəhy 3:19 [j] **12:12-13** Sül. 4:26; Yeş. 35:3
[p] **12:15** Qanun. 29:18 [q] **12:16** Yar. 25:29-34 [r] **12:17** Yar. 27:30-40
[s] **12:18-19** Çıx. 19:16-22; 20:18-21; Qanun. 4:11-12; 5:22-27 [t] **12:18** *Bir şeyə* – bəzi
əlyazmalarda *dağa*.

The Bible in Azerbaijani; 1st ed. © 2008, Bible Society of Azerbaijan and Institute for Bible Translation

o səsi eşidənlər onlara daha bir söz deyilməsin deyə yalvardılar. 20 [u]Çünki
«əgər dağa bir heyvan belə, toxunsa, o, daşqalaq edilsin» əmrinə tab
gətirə bilməzdilər. 21 [v]Bu mənzərə o qədər qorxunc idi ki, Musa «mən
qorxu və lərzə içindəyəm» dedi. 22 [w]Lakin siz Sion dağına, var olan
Allahın şəhərinə – səmavi Yerusəlimə, saysız-hesabsız mələklərə,
23 göylərdə adları qeyd edilmiş ilk doğulanların ümumi məclisinə və
cəmiyyətinə, hamının Hakimi olan Allaha, kamala çatmış salehlərin
ruhlarına, 24 Yeni Əhdin Vasitəçisi olan İsaya və Habilin qanından daha
üstün söz deyən səpilmiş qana yaxınlaşdınız.
25 [x]Bunu Deyəni rədd etməyəsiniz deyə diqqətli olun. Çünki əgər
yer üzündə xəbərdarlıq edəni rədd edənlər cəzadan qaça bilmədilərsə,
biz göylərdən xəbərdarlıq Edəndən üz döndərsək, cəzadan qaça
bilməyəcəyimiz daha çox yəqindir. 26 [y]O vaxt Onun səsi yeri sarsıtdı.
Amma indi

«Mən bir dəfə də yalnız yeri yox, göyü də lərzəyə gətirəcəyəm»

deyə vəd etmişdir. 27 «Bir dəfə də» sözü bunu göstərir: sarsıla bilən,
yəni yaradılmış şeylər aradan qaldırılacaq ki, sarsıla bilməyənlər daim
var olsunlar. 28 Buna görə sarsılmaz Padşahlığa nail olduğumuz üçün
minnətdar olaq; belə ki möminlik və ehtiramla Allaha məqbul tərzdə
Ona ibadət edək. 29 [z]Çünki Allahımız yandırıb-yaxan alovdur.

### Öyüd-nəsihətlər

13 1 Aranızda daimi qardaşlıq sevgisi olsun. 2 [a]Qonaqpərvər olmağı
da unutmayın, çünki belə davranan bəziləri bilmədən mələklərə
qonaqpərvərlik göstərmişlər. 3 Özünüzü həbsdə olanların yerinə qoyaraq
onları yada salın. Əzab-əziyyət içində olanları da elə xatırlayın ki,
sanki özünüz onlarla birgə əzab-əziyyət çəkirsiniz. 4 Qoy hər kəs nikaha
hörmətlə yanaşsın. Qoy ər-arvad yatağı murdarlanmasın. Çünki Allah
əxlaqsızları və zinakarları mühakimə edəcək. 5 [b]Həyatınız pulpərəstlikdən
azad olsun, nəyiniz varsa, ona qane olun. Çünki Allah Özü demişdir:
«Səni heç vaxt atmaram, səni heç vaxt tərk etmərəm». 6 [c]Buna görə biz
arxayınlıqla deyirik:

«Rəbb mənə yardım edəndir, heç qorxmaram.
İnsan mənə nə edə bilər?»

7 Allahın kəlamını sizə danışan rəhbərlərinizi yada salın. Onların
həyat tərzinin nəticəsinə baxıb imanlarını nümunə olaraq götürün.
8 İsa Məsih dünən, bu gün və əbədi olaraq eynidir. 9 Müxtəlif və yad
təlimlərlə yoldan azmayın, çünki ürək yeməklərlə deyil, Allahın lütfü ilə

---

[u] **12:20** Çıx. 19:12-13 [v] **12:21** Qanun. 9:19 [w] **12:22-24** Yar. 4:10 [x] **12:25** Çıx. 20:22
[y] **12:26** Haq. 2:6 [z] **12:29** Qanun. 4:24; 9:3 [a] **13:2** Yar. 18:1-8; 19:1-3
[b] **13:5** Qanun. 31:6,8; Yeşua 1:5 [c] **13:6** Zəb. 118:6

The Bible in Azerbaijani; 1st ed. © 2008, Bible Society of Azerbaijan and Institute for Bible Translation

qüvvətlənsə, yaxşıdır. Bu cür yemək qaydalarına riayət edənlər bir xeyir
görmədilər. 10 Bizim bir qurbangahımız var ki, ibadət çadırında xidmət
edənlərin ondan yeməyə icazəsi yoxdur. 11 [d] Çünki baş kahin günah
qurbanı olan heyvanların qanını Müqəddəs yerə gətirir, cəsədləri isə
düşərgənin kənarında yandırılır. 12 Bunun kimi İsa da Öz qanı ilə xalqı
təqdis etmək üçün şəhər darvazasının kənarında əzab çəkdi. 13 Buna
görə Onun gördüyü təhqiri daşıyaraq düşərgənin kənarına çıxıb Onun
yanına gedək. 14 Çünki burada daimi şəhərimiz yoxdur, amma biz gələcək
şəhəri axtarırıq. 15 Onda İsa vasitəsilə həmişə Allaha həmd qurbanını,
yəni Onun adını iqrar edənlərin dilinin bəhrəsi olan sözləri təqdim edək.
16 Xeyirxahlıq etməyi və varınızı başqaları ilə bölüşməyi unutmayın,
çünki Allah bu cür qurbanlardan razı qalır.

17 Öz rəhbərlərinizə itaətli olun və onlara tabe olun. Axı onlar hər vaxt
həyatınız üçün qayğı çəkir, çünki hesabat verəcəklər. Qoy onlar bunu
sevinclə etsinlər, ah-zarla etməsinlər, çünki bu sizə fayda verməz.

18 Bizim üçün dua edin. Biz əminik ki, vicdanımız təmizdir və hər
cəhətcə yaxşı həyat tərzi sürməyə can atırıq. 19 Yanınıza tez qayıtmağım
üçün dua etmənizi xüsusilə xahiş edirəm.

20 Sülh qaynağı olan Allah – qoyunların böyük Çobanı olan Rəbbimiz
İsanı əbədi Əhdin qanı ilə ölülər arasından diriltən Allah 21 sizi hər cür
yaxşı şeylə təmin etsin ki, İsa Məsih vasitəsilə Özünə xoş olanı bizdə[e]
icra etsin və siz Onun iradəsini həyata keçirəsiniz. İsa Məsihə əbədi izzət
olsun! Amin.

22 Qardaşlar, sizdən xahiş edirəm, bu öyüd-nəsihət sözünü dözümlə
qəbul edin, çünki sizə qısaca yazdım. 23 Xəbəriniz olsun ki, qardaşımız
Timotey azadlığa buraxılmışdır. Əgər tezliklə yanıma gələrsə, onunla
birlikdə sizi görəcəyəm.

24 Bütün rəhbərlərinizi və müqəddəslərin hamısını salamlayın.
İtaliyadan olanlar sizə salam göndərirlər.

25 Hamınıza lütf olsun!

---

[d] **13:11** Lev. 16:27 [e] **13:21** *Bizdə* – bəzi əlyazmalarda *sizdə.*

The Bible in Azerbaijani; 1st ed. © 2008, Bible Society of Azerbaijan and Institute for Bible Translation